

FƏXRİ
MÜSLÜM

## DƏFN EDİN BU YÖNÜ, ÜZ, QARABAĞA.

Yuxu, dördayaqlı qoyun kimidi,
İstinin, bürkünün izinə düşür.
Baxıram, səmadan
Bir quyruqlu ulduz sallanıb yerə,
Ziyası, səhərin üzünə düşür.

Dünyanın dar vaxtı, sıxdıqca bizi,
Adamın könlündən bir yaylaq keçir.
İndi, gəl-gəl deyir qızıl balıqlar,
İçdən, daş-kəsəkli, bir çaylaq keçir.

İndi çiçəklər də, adam kimidi,
Qalıb qərib-qərib, gözü nəm çəkir.
Darıxıb meşə də, ağacları da,
Kökləri, xiffətdən, suyu, kəm çəkir.

Dağlar hardan bilsin, böyür-başında,
Necə xəyanətin dişi ağarır.
Bizdən inciməyə haqqı da vardı,
Hirsindən qayası, daşı ağarır.

Bu, virus Günəşə, Aya da çatıb,
Buluddan, üzünün, yaşmağı bomboz.
Deyəsən orda da, qanun yerimir,
Aşağı, yuxarı çaşmağı bomboz.

Eşitdim, Marsa da, qoşun yığırlar,
Düşmənin meylindən, indi, Mars keçir.
Pandemiya çaşdırıb,
Dənizdən-dənizə, arzusu çatmır,
İlkin salınacaq,
Şəhərin adı da, elə Qars keçir.

Daha, divarlar da, bezibdi bizdən,
Nə dua qəbuldu, nə də, salavat.
Oyun da şübhəli, hər oynayan da,
Kimə, necə gəldi, bir salavey at.

Ümid boğaz deşir bağlı ağızda,
Deyirik, havası, nəsnəsi çatmır.
Dəyirman boşuna fırlanır çax-çax,
Baş arxın nə suyu, dəhnəsi çatmır.

Hələ, kölgəmizdə güzgülənirik,
Dəfn edin bu yönü, üz Qarabağa.
Karvan çoxdan keçib, biz gecikmişik,
Bəlkə ruhlar aça, iz, Qarabağa.

Yuxu, dördayaqlı qoyun kimidi,
İstinin, bürkünün izinə düşür.
Baxıram, səmadan
Bir quyruqlu ulduz sallanıb yerə,
Ziyası, səhərin üzünə düşür.

## GENERAL POLAD HƏŞİMOVA

### PAŞAM

Taleyinə mərdlik, qeyrət yazıldı,
Min kədər yazıldı, min dərd yazıldı,
Bütöv vətənimiz, min yurd yazıldı,
Öpüb, bu torpağa üz qoydun, Paşam.

Başının üstündən çən, duman keçdi,
Gecən, gündüzün də, pis, yaman, keçdi,
Bilmədin, ömür də, nə zaman keçdi,
Səngərdən, səngərə, diz qoydun, Paşam.

Nə dərə bilmədin, nə dağ bilmədin,
Çəkdin qılıncını, sol, sağ, bilmədin,
Dağlamamış cannı, dağ-dağ, gəlmədin,
Komuna od vurub, köz qoydun, Paşam.

Həmişə əsgərin önündə getdin,
Tanrı qəzəbində, kinində getdin,
Havanın bozunda, çənində getdin,
Yeni bir yol açdın, iz qoydun, Paşam.

Düşmənə görk oldu, dərs oldu biraz,
Yolları, izləri, tərs oldu biraz,
Hər adın gələndə, bəs oldu, biraz,
Yarıb, yarasına duz qoydun, Paşam.

Çiyinlər dik durdu, El də, dik durdu,
Yüklənib şehindən, güldə yük, durdu,
Hər kəs ayaq üstdə, hər kəs bərk durdu,
Hələ, yazılmamış, söz qoydun, Paşam.

Vəndamın çayında, balıq, yayındı,
Heç də, gözləmirdi, xalıq yayındı,
Dərib göz yaşını,
Ana əllərində yaylıq, yayındı,
Sevgidən bir heykəl, öz qoydun, Paşam.

Taleyinə mərdlik, qeyrət yazıldı,
Min kədər yazıldı, min dərd yazıldı,
Bütöv vətənimiz, min yurd yazıldı,
Öpüb, bu torpağa üz qoydun, Paşam.

## ŞUŞA XATİRƏLƏRİ

Tez-tez yolum düşər, gedər, gələrdim,
Doğmaydı havası, çəni, Şuşanın.
Elə, qardaş idi, bizim yerlərə,
Çəkərdi danüzü, nəmi, Şuşanın.

Dərəyə baxardım Cıdır düzündən,
Kipriklər dolaşar, göz qaralardı.
Canı titrədərdi, sal qayaları,
Eləbil canımda köz qaralardı.

Sanki, dolam-dolam göyə çıxardım,
Vallah nağıl idi, yolu, Şuşanın.
Əzanı dağlarda,
Əkis-səda verər, sıralanardı,
Sinəsi dərd, qəmlə dolu, Şuşanın.

Hər evdən gələn səs, alardı məni,
Sanki Qarabağın şikəstəsiydi.
Gül gülə bağlıydı, çiçək çiçəyə,
Nəğmə çələngiydi, söz bəstəsiydi.

Yaddaş oyum-oyum oyardı məni,
Eləbil, Cabbarın əzan səsiydi.
İlişib qalmışdı üzdə xallara,
Irəvandan belə,
Günü-gündəminin ozan, səsiydi.

Xanəmi ziliylə,
Sanki, gül, çiçəkdən şehi dərərdi,
Qısardı səsini bulaq da, biraz.
Batardı hay-küyü küləyin, yelin,
Dinşərdi orman da, oylaq da, biraz.

Nə deyim Qədirə, bir böyrək üstdə,
Sona bülbüllərlə,
Elə, ağladardı bülbülü güldə.
Bilmirəm sevincdən, ya da, hikkədən,
Al qana batardı bülbül də, gül də.

Dağlardan baş alan sel-su harayı,
Sökərdi torpağı, daşı, qayanı.
Sanki Üzeyirin
Uverturasıydı, səsi, harayı,
Çəkib silkələrdi, zamanı, anı.

Xankəndli, Şuşalı günlərim olub,
Öyünmək olmasın,
Yadların dizinin çökən vaxtıydı.
Onda yazıq-yazıq baxardı sənə,
Bellərini əyib, bükən vaxtıydı.

Əlaltı, gedişi bilirdik ancaq,
Kimiydi anlayan, eşidən bizi.
Səs də, bir daş altda batıb qalırdı,
Hələ də, tövşüdüb, üşüdər bizi.

Yaşadıq doluya tutulmuş kimi,
Sel, su da, köpünü yuyub apardı.
Sözün də, bu başı, o başı kilid,
Boğub məngənədə, əyib, apardı.

Hələ, ümidsizə ümid olmuşuq,
Karvanın Şuşaya yolu bağlıdı.
Elə sındırmayıb sındıran bizi,
Qalıb sınıxçıda,
Necə igidlərin qolu bağlıdı.

Tez-tez yolum düşər, gedər, gələrdim,
Doğmaydı havası, çəni, Şuşanın.
Elə, qardaş idi, bizim yerlərə,
Çəkərdi danüzü, nəmi, Şuşanın.

## KEÇİRƏM

Dağ-aran çəkilmir yuxumdan mənim,
Dərədən keçirəm, düzdən keçirəm.
Canımda talalar talalanıbdır,
Şehindən keçirəm, izdən keçirəm.

Kolarmudu gömgöy, kal dəyir gözə,
Qayalar dimdikdi, sal dəyir gözə,
Atı kişnəməyən, yol dəyir gözə,
Özümdən keçirəm, özdən keçirəm.

Zirvədə boz şahin karıxıb, qalıb,
Hiyləgər qarğa da, qarıxıb, qalıb,
Ən əsas bulaqlar, darıxıb qalıb,
Önündə qatdanıb, dizdən, keçirəm.

Çayın da axarı dəyişib biraz,
Uçquna, yarğana uyuşub biraz,
Gördüm, əl-ayaq da, üyüşüb biraz,
Çırmanıb bu çayı, üzdən keçirəm.

Meşə moruqları qızarıb dən-dən,
Motmotu1 göz yaşı, sozarıb dən-dən,
İlham qurcalanır, bozarıb dən-dən,
Təbiət önündə sözdən keçirəm.

Sozalıb yurd yeri, qərib kimidi,
Əyilib Günəşi qürub kimidi,
Düşmən nişangahı qurmuş kimidi,
Sinəmi yandıran közdən keçirəm.

Dağ-aran çəkilmir yuxumdan mənim,
Dərədən keçirəm, düzdən keçirəm.
Canımda talalar talalanıbdır,
Şehindən keçirəm, izdən keçirəm.
Motmotu1- qarağat

## YENƏ DƏ GECİKDİ

Yenə də, gecikdi, bağın yaz suyu,
Kök torpağa, puçur, göyə dartınar.
Böyüyüb artmadı, narın, nar boyu,
Qonşu bağındakı,
Bağbanın səsinə, küyə dartınar.

Bu bəla qoymadı yazı keçirək,
Payızına qədər, qışına qədər.
Yazın dan üzünü içə köçürək,
Öpdüyüm torpağa, daşıma qədər.

Qumrular damımda dimdik-dimdiyə.
Sanki qaval çalıb, rəqsə durarlar.
Bordaq qazları tək, hərdən, yem deyə,
Havalanıb göydə,
O başa, bu başa dövrə vurarlar.

Şəhər evləri də,
Qəbir evləri tək, səssiz, səmirsiz,
Ruhlar da dolaşıb, köndələn gedər.
Duyğular hənirsiz, canlar hənirsiz,
Elə, gedəni də, bəndədən gedər.

İşıqlar közərər, keçər, gözümdə,
Gündüzüm qarışıq, gecəm qarışıq,
Məndən çıxmayan iş,
Qapanıb qalmışam evə, özüm də,
Vaxtımın nöqtəsi, hecam qarışıq.

Hərdən Günəş döyər, küləklər döyər,
Qapı-pəncərəmdə ayna-şüşəmi,
Cücərər qapanmış
Qərib xatirələr, diləklər döyər,
Sökər, boyat-boyat, könül guşəmi.

Yenə də, gecikdi, bağın yaz suyu,
Kök torpağa, puçur, göyə dartınar.
Böyüyüb artmadı, narın, nar boyu,
Qonşu bağındakı,
Bağbanın səsinə, küyə dartınar.

## DOĞUM GÜNÜMÜN POZİTİV ŞEİRİ

Salam, a, dağların, qərib düşmüşü,
Dəryazağız yazda doğulan adam.
Dodaq qapadığı buz bulaq üstdə,
Şehdən, balağından nəm yağan adam.

Zamanın süzgəci dəyirmansayaq,
Daşında dövr edib, üyünən adam.
Sərhədlər, içində xançal yarası,
Qəzəbdən göynəyən, iynəyən adam.

Şeytanlar gizlicə cansız mikrobu,
Qılınca çevirib oyun çıxartdı.
Quduz itlər kimi, çaqqallar kimi,
Dərd də, üzə durub, dişin ağartdı.

Bayır-baca bağlı, üzə, sifətə,
Özü, öz içində yaşayan adam,
Duman qərib-qərib köç edib getdi.
Qubarı, könlündən, başlayan adam.

Kirpiklər tavana dirənib qaldı,
Yolların bu başı, o başı kəsik.
Ayaqlar mənzildə vaxtın ölçüsü,
Gecənin danüzü, obaşı, kəsik.

Xəyal da, təsbehin dənələri tək,
Elə, dənələnib, dağılıb gedir.
İnsanlar hər yerdə taleysiz kimi,
Iki bir, üç bir, soğulub gedir.

Yaşamın mübarək, ömrün mübarək,
Dünyanı içində gəzdirən adam.
Heç nə qalmadı ki, tərifə, sözə,
Özünü, özündən bezdirən adam.

Ağac puçurlayıb, boy atıb getdi,
Biz, kökü budadıq, soyu budadıq.
Bilsək də, üst qatın bizə dəxli yox,
Günəşi budadıq, Ayı budadıq.

Var olan yol-iz də, qapanıb qalıb,
Sükunət çökübdü böyür, başına.
Üşüdü içində xatirələr də,
Soyuqluq gətirdi, çölün daşına.

Ömürdü, ya gündü, o yana deyil,
Nidası, nöqtəsi, vergülü vardı.
Nəşi yerə bağlı, ruh, göyə bağlı,
Ovub, ovxarlayan, tər gülü vardı.

Salam, a, dağların bozu, bozağı,
Özü, öz dərdinə hoy verən adam.
Doğumun mübarək, yaşın mübarək,
Günün güneyindən, boy verən adam.

Salam, a, dağların, qərib düşmüşü,
Dəryazağız yazda doğulan adam.
Dodaq qapadığı buz bulaq üstdə,
Şehdən, balağından nəm yağan adam.

## HEYİF BU GÜNLƏRƏ

Heyif bu günlərə,
Heyif ömürlərə , belə yaşadıq,
Getdikcə, adamı od tutub yanır.
Parlaq ulduzlar da, doğan Günəş də,
Bizlərə beləcə,
Xoş üzün göstərib, ovudub, yanır.

Əl də var, ayaq da, göz darı dəlir,
Təpər, boynu bükük, utanc yerimiz.
Başı kəsik kimi, ömür sürürük,
Nə ölümüz, ölü, nə də, dirimiz.

Bizim öz dağımız, dağdan ağırsa,
O dağa nə sevgi, nə eşqdi belə?
Hələ, harınlamış, xainlər bir-bir,
Acıq verə-verə,
Sərin yaylaqlara nə köçdü belə?

Üzə bax, hələ gül, çiçək dəririk,
Düşmən də, Şuşada,
Tapdağa çevirib Cıdır düzünü.
Barıt qoxusundan didərgin düşüb,
Bülbül də, itirib, güldən izini

Bu, necə dərddi ki, tər sinəmizdən,
Asılıb daş kimi tər sinəmizdən,
Adam ha vurnuxur ölə də, bilmir.
Zaman elə sınıb, elə, sınıb ki,
Adam nə ağlaya, nə gülə bilmir.

Heyif bu günlərə,
Heyif ömürlərə , belə yaşadıq,
Getdikcə, adamı od tutub yanır.
Parlaq ulduzlar da, doğan Günəş də,
Bizlərə beləcə,
Xoş üzün göstərib, ovudub, yanır.

## ADAMLARI GÖZLƏYİRMİŞ ÇÖL-BAYIR

Adamları, gözləyirmiş, çöl-bayır,
Havanın da, rəngi-rufu, qayıtdı.
Meh dolandı, ürək açdı, sevindi,
Dustaq olmuş, hal-əhvalı, oyatdı.

Səma açıq, üz-gözündə təbəssüm,
Yaşmaq altdan Günəş kimi, gülümsər.
Dağlar çənsiz, dağ olmaz ki, çəni var,
Şehi daşdan, yaşıl otdan, gülümsər.

Baxça, bağda ala qarğa, var-gəldə,
Bülbül qonub qızıl gülə, oxuyur.
Azadlığın rəngi necə, xoşuymuş,
Çeşid-çeşid, könül xalı, toxuyur.

Gün uzandı, ömür gəldi, ömürə,
Arzuların ağzı açıq güneyə.
Köksüm alda, necə şərqi oyanıb,
Düyünləndi bayatıya, tər neyə.

İstiləndi quluncumun hər tini,
Yel oynadı ağ saçımda, telimdə.
Sinirlərim, zəncirindən toxdadı,
Qantarğası, zər yüyəni, əlimdə.

Adamları, gözləyirmiş, çöl-bayır,
Havanın da, rəngi-rufu, qayıtdı.
Meh dolandı, ürək açdı, sevindi,
Dustaq olmuş, hal-əhvalı, oyatdı.